Fuad İzzət oğlu Nurullayev

# Azərbaycan Müsəlmanları Dinlərarası Dialoq Multikulturailzə Töhfələr

Allah tərəfindən göndərilmiş səmavi dinlərlərin ruhunda məcburiyyət yoxdur. Çünki məcburiyyət, başqasına zorla hansısa dini əqidəni qəbul etdirmək səmavi dinlərin əsas prinsiplərinə ziddir. Bunu biz "Tövrat", "İncil" və "Qurani-kərim"in ayələrində də görməkdəyik. Bəlkə də İslam dini digər dinlərə nisbətən bu məsələni daha da qabarıq şəkildə ifadə etməkdədir. Uca Rəbbimiz belə bəyan etməkdədir: "Dində məcburiyyət yoxdur" (Bəqərə, 256). Bu ayəyə əsasən deyə bilərik ki, dinimiz öz ayinlərini başqalarına məcburi şəkildə qəbul etdirməyə qətiyyən yox deyir. Dinimiz qarşısındakını əqidə baxımından tamamilə sərbəst buraxır. Qurani-kərimin ayəsi ilə sübut olunmuşdur ki, İslam dini bu iki din mənsublarının ibadət mərkəzləri olan sineqoq və kilsələrə tolerantlıq nümayiş elətdirib. "Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan sinaqoqlar (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi)" (Həcc, 40). Gördüyünüz kimi, İslam dinində tolerantlıq dinin əsas ünsürü kimi qəbul edilir. Qurani-kərimin müxtəlif ayələrində Uca Rəbbimiz belə buyurur: "Sizin dininiz sizə, mənim dinim mənə aiddir" (Kafirun, 6). Bu ayədən də insanların müxtəlif inamda və fikirdə ola biləcəyi və həmin insanlara

qarşı münasibətin necə formalaşacağı aydın görünür. Tarixə nəzər yetirsək aydın şəkildə görərik ki, bizim ölkəmizdə daima xristian və yəhudilər olmuşdur. Qərblilərin bu mövzudakı etiraflarına görə, xristian və yəhudilər öz dövlətlərində belə, bizim içimizdə yaşadıqları qədər firavan yaşamamışlar. Müsəlmanlar onları təminat altına alıb qorumuşlar. Fəqət heç bir zaman onları İslam dinini qəbul etməyə məcbur etməmişlər. Onların xüsusi məktəbləri olmuş və özlərinə aid xüsusiyyətlərinin hamısını, dini ayin və bayramlarını mühafizə edirdilər. Buna dəlil olaraq biz, Qurani-kərimin "İman gətirənlərdən, yəhudi, xristian və sabiilərdən Allaha, axirət gününə inanların və yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. Onların heç bir qorxu yoxdur və onlar qəmgin olmazlar" (Bəqərə, 62) və "Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!" (Maidə, 69) ayələrində dəlil olaraq göstərə bilərik. Bu bariz nümunədir ki, biz insanlar bir ata-ananın övladıyıq, heç bir əqidə, heç bir təriqət və məzhəb bizi ayıra bilməz. Əgər müsəlmanların inandıqları və Allah tərəfindən göndərilən Quran dəlildirsə, Quranımız bizi vəhdətə dəvət edir və eynilə Allahın cənnət və ya cəhənnəminin bütün bəşərə aid olduğunu bildirir. Müasir dövrümüzdə də bizim dövlətimiz və xalqımız bu multikultural ənənəni davam etdirir. Belə ki, dövlətimizin başçısı Prezident İlham Əliyevin 14 may 2014-cü il tarixli fərmanı ilə yaradılan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əsas məqsədi Azərbaycan multikulturalizmi və tolerantlığı ənənələrini dünyada təşviq etməkdir. Azərbaycanda çoxəsrlik ənənələrə malik tolerantlıq mühiti, ayrı-ayrı dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri vardır. Prezident İlham Əliyevin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşır, ölkəmizdə dövlət-din münasibətləri, tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələr vardır.

Azərbaycanda əsrlər boyu müxtəlif dinlərin nümayəndələri, fərqli etnik qruplar və xalqlar dostluq və qardaşlıq mühitində yaşayıblar. Hazırkı mürəkkəb geosiyasi dövrdə mədəniyyətlərarası dialoq hər şeydən daha önəmlidir. Mədəni müxtəlifliklərin qarşılıqlı şəkildə tanınması və qəbul edilməsi tərəqqiyə və çiçəklənməyə aparan əsas yoldur. Multikulturalizm, tolerantlıq Azərbaycanın hər bir vətəndaşının həyat tərzinə çevrilib. Həmçinin, vurğulamaq istəyirəm ki, Multikulturalizm təkcə insanların mədəni inkişafında, milli azlıqların problemlərinin həllində deyil, dövlətlərarası əlaqələrin inkişafında, şəffaflığın təmin olunmasında da mühüm rol oynayır. Bildiyiniz kimi, Azərbaycan həm də zəngin enerji ehtiyatlarına malik bir ölkədir. Burada müxtəlif dinlərin və millətlərin nümayəndələri rahat yaşayırlar. Onların hüquqlarının müdafiəsi dövlət səviyyəsində həyata keçirilir. Bu ölkədə yaşayan etnik azlıqlar öz dillərini, mədəni dəyərlərini və dini etiqadlarını sərbəst şəkildə təbliğ edə və bu yolla da qoruyub saxlaya bilirlər. Azərbaycan Respublikasında dini radikalizm təfəkkürü ilə mübarizə aparmaq elə də çətin iş deyil. Çünki təfəkkürcə, sivil yanaşma tərzi baxımından günü-gündən inkişaf edən gənclərimiz radikalizmin nə olduğunu çox gözəl şəkildə başa düşür və yeri gəldikcə də bu sahədə maarifləndirililirlər. Beləliklə, Azərbaycanın multikultural siyasəti fundamentalizmlə və ekstremizmlə mübarizədə yaxşı bir vasitədir. Müxtəlif irqlər və dinlər arasında sülh şəraitində birgə yaşayışı özündə əks etdirən multikulturalizm siyasətinin dövlət səviyyəsində tətbiq edildiyi Azərbaycan bu baxımdan model ölkə ola bilər. Xalqımız öz milli xüsusiyyətindən və dinimizdən gələn bu inanca son dərəcə diqqət göstərmiş və bütün səmavi dinlərin ardıcıllarına xoş münasibət göstərmişdir. Son dövrlərdə Qafqaz Müsəlmanları İdarəsi, xüsusilə də onun rəhbəri Şeyxülislam həzrətlərinin bu sahədə atdığı addımları qiymətləndirmək hər birimizin mənəvi borcudur.

Hacı Fuad Nurulla QMİ-in sədr müavini